Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Taleyinin şeirini yazan adam-Eldar Baxış

Eldar Baxışın 70 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

Bakı -2017

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**"Taleyinin şeirini yazan adam-Eldar Baxış"** metodik vəsait / tərt. ed.: A.Əliyeva; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.-Bakı, 2017.-33 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçidən

Şeirlər vardır, yazıldığı gündən dillərə, könüllərə düşən... İllər ötüb keçsə də yaddaşın bir küncündə, dilin ucunda qalan... İnsan yaşa dolsa da heç zaman qocalmayan, hər zaman öz estetik təravətini saxlayan, vəsf etdiyi duyğular qədər təmiz, saf və əbədi olan şeirlər... Bu ölməz şeirlərə yeni könüllər, yeni könül evləri, yeni sevgilər tapmaq üçün... Şeirləri çoxaltmaq üçün... Azərbaycan ədəbiyyatının elə ünlü imzaları var ki, dünyanın üstümüzə ələdiyi dərdindən-sərindən, kirindən, dedi-qodusundan arınmaq, paklanmaq üçün onların yaradıcılığına dönə-dönə qayıtmaq lazımdır. Bəzən, amansız əcəl, vaxtsız ölüm elələrini sıralarımızdan zamansız aparsa da, onları unutmamaq, gənc nəslə xatırlatmaq, təbliğ etmək borcumuzdur. Belə işıqlı imzalardan biri vətənpərvər, istedadlı şair Eldar Baxışdır. Nə yaxşı ki, Eldar Baxış öz sözünün şairidir-öz qəlbinin, öz taleyinin. Ədəbiyyat tariximizdə “İydə çiçəyi”, “Üçtəpə bayatıları”, “Allı qız, ballı qız, xallı qız”, “Ağ saçların işığı”, “Qara ilə Qaracanın nağılı”, “Deyə bilmədiyim sözlər”, “Atlı oğlanlar”, “Ölüsü ilə ərəbcə, dirisi ilə rusca” və s. kitabları ilə ədəbi mərhələ yaradan Eldar Baxış yazdığı məqalələrdən çəkdiyi filmlərə qədər hər yerdə öz dəst-xətti ilə seçilir. Onun yaratdıqlarının müdafiəyə ehtiyacı yoxdu. Onlar illər uzunu özlərini oxutduracaq, izlədəcəklər... Bu il Eldar Baxışın 70 illik yubileyi ədəbi içtimaiyyət və poeziyasevərlər tərəfəndən geniş qeyd ediləcək. Bu münasibətilə hazirladığımız vəsait iki hissədən ibarətdir. I hissədə şairin həyat və yaradıcılığından bəhs edilir. II hissədə isə ***“Günəşin küpündəki rənglərdən biri-Eldar Baxış”*** adlanır və Eldar Baxışın yaradıcılığı ilə bağlı keçirilə biləcək tədbirlərdən söhbət açılır.

## Həyat və yaradıcılığı

Eldar Baxış 1947-ci il iyunun 22-də Azərbaycanın Qubadlı rayonunun Diləli Müskanlı kəndində kəndli ailəsində doğulmuşdur. Burada ibtidai məktəbi, Qubadlıda isə onbirillik məktəbi bitirib. ADU-nun tarix fakültəsində təhsil almışdır (1965-1969). Bakı kəndlərində müəllimlik etmiş, öz ərizəsi ilə bir il əsgəri xidmətdə olmuşdur. Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri şirkətində kiçik redaktor, redaktor (1972-1988), televiziyanın ədəbi-dram verilişləri baş redaksiyasının televiziya tamaşaları şöbəsinin böyük redaktoru (1988-1990) vəzifələrində çalışmışdır. “Səs” və “Nəfəs” qəzetlərini yaratmış, “Səs” qəzetinin baş redaktoru olmuşdur (1990-1992). Yenidən Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətində Gənclik yaradıcılıq birliyinin ictimai-siyasi şöbəsinin müdiri işləmişdir (1992-1993). Radionun bilgi və uşaq dünyası verilişləri Baş redaksiyasının baş redaktoru olmuşdur (1993-cü ildən). “Köynək” adlı ilk şeiri 1966-cı ildə “Azərbaycan gəncləri” qəzetində dərc olunmuşdur. Həmin vaxtdan dövri mətbuatda müntəzəm çıxış etmişdir. Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. Vladivostokda keçirilən Umumittifaq poeziya festivalında iştirak etmişdir (1985). Qardaş xalqlar ədəbiyyatından seçmə nümunələri Azərbaycan dilinə çevirmişdir. Kukla teatrı onun “Məlikməmməd” pyesini səhnələşdirmişdir (1982). Bu pyes Mərdəkan xalq teatrı aktyorlarının ifasında Praqada tamaşaya qoyulmuşdur. Eyni zamanda xalq teatrlarına Tbilisidə keçirilən Ümumittifaq baxışında yüksək mükafata layiq görülmüşdür. “Azərbaycan” jurnalında çap etdirdiyi “Qaravun dərənin dükançası” (1981) onun ilk nəsr əsəridir. “Uzun Həsən” pyesi

Şuşa Dövlət Teatrında tamaşaya hazırlansa da erməni təcavüzü üzündən oynanılmamışdır. Özbəkistanın ürək dostları klubunun fəxri üzvü seçilmişdir (1992).

Eldar Baxış 1996-cı il mayın 22-də Bakıda vəfat etmişdir. Burada Xırdalan qəbristanlığında dəfn olunmuşdur. Onu da qeyd edək ki, böyük şair Eldar Baxış rejissor, aktyor Tural Ağayevin atasıdır.

XX yüzilliyin Azərbaycan ədəbiyyatına bəxş etdiyi ən istedadlı və ən səmimi qələm sahiblərindən biri idi O. Sanki Taleyini Nostradamus biliciliyi ilə qələmə alan Eldar Baxış. S.T.Koldric deyirdi ki, poetik dürüstlük şübhə yolunun bir dəqiqəlik qapanmasıdır. Şeir yalan, pafos xəyallar və illüziyalar aləminin əksi, səsi deyil. Şair yaşadığından, duyduğundan, yandığından, sevdiyindən yazmayanda həmin o "poetik dürüstlük" keyfiyyəti olmur. Ən əsası, inandığından yazmalıdır, şübhə ilə, ehtimalla yazanda oxucunu öz ruh aləminə qonaq edə bilməz... Eldar Baxış şeirlərində yalan yoxdur. Hətta "şair yalanı" belə...

Ocaqda alışıb-yandım,
Tüstüm çıxdı buxarıdan.
Quru kitabdan oxudum,
Yedim quru suxarıdan.

Gün günlədim, ay ayladım;
Yeri, göyü qalayladım,
Teymurləngi harayladım,
Səmərqənddən, Buxaradan.

Məni ulu göy saxladı,
Göy saxladı, ay saxladı,
Yaralarım qaysaxladı,
Ax yaradan, ox yaradan...

Geydim elin geydiyindən
Yedim elin yediyindən,
Dedim elin dediyindən;
Araz çayı, qalx aradan.

Boz atım var, salsanı yox,
Qıratım var, yalmanı yox,
Sözlərimin yalanı yox,
Allah baxır yuxarıdan.

Poeziyamızda imzalar var ki, ad kimi, tale kimi, şeir kimi, sözün hansısa çaları, rəngi kimi qalıb yadımızda. Eldar Baxış inancı, güvəni, iradəsi daxilindəki şair təbiətinə məxsus həssaslığa, kövrəkliyə, uşaq saflığına boyun əymişdi. Həyat adlı mübarizə, mücadilə meydanında üz tutduğu, etibar edib sığındığı "dözüm" lə də adam kimi üzbəüz söhbət edib dərdləşə bilirdi. Çünki "Bu soyda adam içində, bu boyda adam içində, Dərd deməyə adam yoxdu"-tənhalığı vardı onun...
Dözümünə bel bağlayıb dözə-dözə yaşamalı olur. Nə istəyirsə, həyatdan yox eşidir.

Vardan bir söz demədilər,
Deyəndə yoxdan dedilər.
Dərddən, qəmdən, göz yaşından,
Amandan, ahdan dedilər.

Eldar Baxış şeirlərində məlum, bəlkə də şairin şeirlərində vəsf olunan obrazlar var ki, onun baxışında, yanaşmasında, yeni geyim, don, çalar və rəng qazanır. 20 Yanvar, Qarabağ hadisələri günlərində "əliyalın xalq" ifadəsi dilləri dolaşırdı. Bu ifadənin içtimai, siyasi semantikası Eldar Baxış şeirlərindəki poetik təqdimata uduzur bir az... Məlim olur ki, müstəqil, azad olmaq istəyən Azərbaycan insanının əli silahsız olsa da, bu əlin bayraq da ola bilən vaxtları olub, qalxan da, gürz də.

Yırtıq cibimizdən çəkib çıxardıq,
Bayrağa döndərdik əlimizi biz.
Qalxana döndərdik, gürzə döndərdik,
Yarağa döndərdik əlimizi biz.

Nahaq olan əllər nahaq oldular,
Haqqa qovuşdular, haqq olan əllər.
Səhər orda-burda ölən əlləri
Yığışıb daşıdılar sağ qalan əllər.

Eldar Baxışın 45 yaşı olanda dünyayla haqq-hesab eləmək istəyir. Kim kimi yıxdı, kim kimə uduzdu? Əlbəttə, belə üzləşmə ancaq şair təbiətinin işi ola bilərdi. Deyirdi ki, 45 yaşım var, dünya bir tərəfdədir, mən bir tərəfdə. Çiling-ağac oynayırıq dünya ilə. Gah mən ağac oluram, dünya ciling, gah dünya ağac olur mən çiling. Dünyayla oynaya-oynaya orta məktəbi bitirdim, instituta girdim, evləndim, ailə-uşaq sahibi oldum, dost qazandım. Yazdım, pozdum.

Həyat acı üzünü Eldar Baxışa tez göstərdi. Onu erkən aldı aramızdan, əgər ömrü vəfa etsə idi, şairin yazacağı əsərlər də çox idi, alacağı mükafatlar da, fəxri adlar da. Onu qarşıda nələr gözləmirdi?.. O, hələ çox əsərləri ilə sevindirəcəkdi onu sevən oxucularını. Əgər ömrü vəfa etsə idi... Tanınmış şair, istedadlı qələm əhli, səmimi şəxsiyyət Eldar Baxışın işıqlı xatirəsi hər dəm qəlbimizdə yaşayacaqdır. İstedadlı şair Eldar Baxışın 70-illik yubileyi münasibəti ilə kitabxanada bir neçə tədbirlər; kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Şairi sevdirmək, yaradıcılığını gənc nəslə və oxuculara tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi keçirilməsi məqsədə uyğundur. Şairin müxtəlif illərdə çəkilmiş foto stendi, bundan başqa Eldar Baxışın kitabları sərgidə öz yerini alır. Şairin müxtəlif dövrlərdə

nəşr olunmuş öz əsərləri ilə yanaşı müxtəlif ədiblərin şair haqqında yazdığı materiallar da sərgidə nümayiş olunur. Görkəmli insanların şair haqqında söylədikləri sitatlar və şeir parçaları da sərgidə nümayiş etdirilir. Sərgiyə müxtəlif başlıqlar verilə bilər:

“Eldar Baxış -70”, “Novator şair-Eldar Baxış”, “Uşaqlar şairin gözü ilə”, “Lirik poemalar ustadı- Eldar Baxış”, ““‘Gecənin bir aləmi” - həyatına köçən şair”, “Ədəbiyyatımızda obrazı olan şair - Eldar Baxış”, “Sözü duyan şair”, “Olanım qələmdi vardan, dövlətdən-deyən şair”, “Azdı bu dünyada deyilən sözlər, deyilməyən sözlər çoxdu dünyada”, “Öz sözünün şairi-Eldar Baxış”, “Misralarda yaşayan şair” və s.

















Eldar Baxışın yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, ***"Deyə bilmədiyim sözlər"*** adlı şeir müsabiqəsidir. Kitabxanaçı ilk olaraq şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq şairin həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından söhbət açır. Kitabxanaçı səhnəyə yaxınlaşaraq qonaqları salamlayır və şair haqqında qısa məlumat verir:

*Kitabxanaçı:* Azdı bu dünyada deyilən sözlər,
Deyilməyən sözlər çoxdu dünyada.

Yuxarıda qeyd olunan misralar "Yazıçı" nəşriyyatı tərəfindən buraxılmış "Deyə bilmədiyim sözlər" kitabının müəllifi Eldar Baxışın yaradıcılıq tezisinə çevrilib. Deyilməmiş sözlər sevdası ilə poetik səfərə çıxan şair üçün təzə söz müqəddəsdir, təzə kəşfdir, təzə görüşdür. O, "Şairin taleyi-sözün taleyi" qənaətinə gələrək, hər söz üzərində dönə-dönə, böyük səbrlə işləyir. Çalışır ki, işlətdiyi ifadələr, sözlər yalnız və yalnız özünə məxsus olsun. Şairin istər heca, istərsə də sərbəst vəzndə yazdığı şeirlərini birləşdirən əsas cəhətlərdən biri də bu mövzuya uyğun poetik forma tapmasıdır. O, "Ağacla danışdım ağac dilində, yarpaqla danışdım, yarpaq dilində" deyərək əlinə qələm alıb masa arxasında əyləşəndə özünü ən qüdrətli adam hesab edir, otuz qəpiklik qələmini dünyanın var-dövlətindən üstün tutur:

Qələmim olanda qorxu
bilmirəm,-
Niyə qorxmalıyam mən
axı, niyə?
Olanım qələmdir vardan,

dövlətdən,
Onun da qiyməti otuz qəpiyə.
"Qələm".

Kəlbəcər dağları haqda çox yazılıb, çox deyilib. Lakin Eldar Baxışın "Kəlbəcər şeirləri" onlara bənzəmir, nə şairin özünün, nə də qələm dostlarının "Deyə bilmədiyi sözlər" ə aiddir. Bu şeir dağların təsvirindən daha çox həyat, insan, təbiət, gözəllik haqda fəlsəfi ümumiləşdirmələrlə zəngindir. Burada şairin məhəbbətlə, incə bir yumorla adlarını çəkdiyi dağ adamları ilə oxucu qiyabi də olsa ünsiyyət bağlaya bilir, inanır ki, Kəlbəcər dağlarının adamları məhz belə dağ ürəkli olmalıdırlar. Eldar Baxışın şeirlərini səmimiyyət poeziyası adlandırsaq yerinə düşər. Şair oxucu ilə boğazdan yuxarı deyil, səmimiyyətlə danışır, onun məsləkdaşına, həmsöhbətinə çevrilmişdir:

Bu dağların ətəyində,
Bu dağların belində də,
Bu Kəlbəcər obasında
Bu Kəlbəcər elində də
kimi fərə,
kimi beçə,
kimi dovşan, kimi şir,-
Aldada bilməzsən məni,
Aldada bilməzsən, Aşıq Şəmkir...

*Kitabxanaçı sözlərini bitirdikdən sonra I iştirakçı "Bizim babalar" adlı şeirini deməyə başlayır.*

*I iştirakçı:* Yaxşı kişi olub bizim babalar,
Yaxşı torpaqlarda yaşayıb onlar.
Miniblər həmişə yaxşı atları,
Yaxşı qılıncları qurşayıb onlar.

Dərədən keçəndə selə dönüblər,
Təpədən keçəndə yelə dönüblər,
Yığışıb bir ağır elə dönüblər,
Ayaq üzəngidə, diz qabırğada.

Yarısı anamın laylalarında,
Yarısı Bəhruzun boyalarında,
Yarısı Qobustan qayalarında
Yaraqlı-yasaqlı tökülüb qalıb.

*II iştirakçı: "Vətən" adlı şeiri deməyə başlayır.*

Vətən, doğma anamsan
Anamın saf südüsən.
Anamın süd nəğməsi,-
Oxşaması, ninnisi,
Laylası, öyüdüsən.

Vətən, babamsan mənim,
Ürəyi dolu babam,
Barmaqları qupquru,
Qəlyanı sulu babam,
Dəli Həsən,
Koroğlu,
İlxıçı Alı babam...

*III iştirakçı: "İydə çıçəyi" adlı şeiri deməyə başlayır.*

Gəl,
İydə ağacımız
Bu il tez çiçəkləyib.
Üstündə sarı-sarı
Çiçəklər ləçəkləyib.

Gedək çiçək yığmağa,
Əllərini ver mənə...
Mən dırmaşım ağaca,
Sən yerində dur yenə.

Ayaqlarım ilişsin
Bir iydə budağına,
Sən də aç qollarını,
Yıxılım qucağına...

*Sonda münsiflər heyəti qiraəti ilə fərqlənən iştirakçıları mükafatlandırır.*

Eldar Baxışın yubileyi ilə bağlı kitabxanada keçirilən tədbirlərdən biri də ***"biblioqrafik icmal"***dır. Kitabxanaçı biblioqrafik icmal keçirərkən oxuculara ədibin kitabları haqqında məlumat verir.

*Kitabxanaçı:* Eldar Baxış özgür şair idi. Hamının şairi olmasa da, hamıların sevgisini qazanmışdı. Eldar Baxış poeziyası məğrur poeziyadır. Onun şeirlərində fağır misra yoxdur. Onun kitabını vərəqləyəndə bir daha əmin oluruq ki, Eldar Baxış Azərbaycan ədəbiyyatında heç kimə bənzəməyən şairdir. Eldar Baxış dünya poeziyasına baş əyməmiş, öz ruhumuzu, öz düşüncəmizi şeirlərində qoruyan Azərbaycan şairidir. Onun şeirlərində qızların həqiqi obrazı, qarşılaşdığımız təbii, saf insanlar var. Eldar Baxışın bütün şeirləri heç bir düşüncəyə, heç

bir cərəyana sızmadan öz nəfəsiylə qarşımıza çıxır. Məncə, o sadəcə özü kimi qaldığı üçün poeziyamızda əvəzedilməz insandır. Eldar Baxış 70-ci illərdə öz imzasını təsdiqləyib. Eldar Baxış öz üslubu olan, intonasiyası olan şair idi. Bu onu təkcə yaşıdlarından deyil, Azərbaycan poeziyasında olan bütün şairlərdən fərqləndirirdi. Həm də bu üslub və intonasiya təbii idi, onun naturasından gəlirdi. Onun mətnlərinin çox dərinliklərində bəsirət gözüylə görünən, bəlkə də sezilən bir faciə də var ki, sanki bu nüansları onun daxilində olan başqa bir insan pıçıldayıb ona, o da yazıya köçürüb. Yəni özü fərqinə varmayıb bu faciəliliyinin. Eldar Baxışın şeiri, nəsri yox, bütövlükdə sözü maraqlıdır. Bu sözün necə işlənməsi, haldan-hala düşməsi... Şair şeirlərə, misralara tökülən qəlbinin hislərini oxucularla daim bölüşmüşdür. Gözəl şair, şeirlərinin ruhu rəngarəng olan şair Eldar Baxış ayrı-ayrı illərdə bir-birindən maraqlı, nəfis kitabları ilə oxucularını mükafatlandırmışdır.

Onun saf hislərlə dolu ilk kitabı 1977-ci ildə işıq üzü görmüş "İydə çiçəyi" adlı şeir kitabıdır. Eldar Baxışın şeirləri "Ulduz", "Azərbaycan", "Pioner", "Göyərçin" jurnallarında "Ədəbiyyat və İncəsənət", "Azərbaycan gəncləri" və s. qəzetlərdə tez-tez dərc olunur. Bu kitabdakı şeirlərdə gənc şair Böyük Vətən müharibəsi cəbhələrində rəşadətlə vuruşmuş atalarımız haqda düşünür, gənclərimizin beynəlmiləl dostluq ənənələrindən danışır, doğma kəndi, onun adamlarını, gənclərimizin sevgi duyğularını tərənnüm edir:

**Qırmızı iki**

İlk şeirimi yazmışam
Mahmud müəllimin
Riyaziyyat dərsində,
Riyaziyyat dəftərimin
Birinci səhifəsində.
Şagird qələmiylə,

Şagird həvəsiylə,
Gözəl bir qızın
Qara gözlərinin şəvəsiylə.
-Riyaziyyat dərsində şeir?-
Qulağımı çəkdi Mahmud müəllım;
Ürəyi soyumadı hətta
Qırmızı bir iki yazdı
Gözəl bir qıza yazdığım
Şeirin altda.
...İllər keçib,
O qız gəlin köçüb,
Ağrısı keçib qulağımın da...
Ancaq yenə
Düşünürəm o günü;-
İlk şeirimə yazılan
O qırmızı ikini?!.

1979-cu ildə nəşr olunan "Üçtəpə bayatıları" Eldar Baxışın ikinci kitabıdır. Kitabda gənc şairin Vətənə, qurub-yaradan insanın sevgisinə, istəyinə həsr olunmuş şeirləri, poemaları toplanıb:

**Dan ulduzu**

Əvvəl dan ulduzu qalxdı yuxudan.
Dan ulduzu Günəşi oyatdı,
Günəş toyuqları, xoruzları,
toyuqlar, xoruzlar cücüləri,
cücülər qarışqanı...
...Başladı kəndçinin öküzünən,
torpağın toxumunan,
kəpənəyin çiçəyinən danışığı.

Başlandı
Dünyanın günü-güzaranı,
dolanışığı...
...Əvvəl Dan ulduzu qalxdı yuxudan.

1983-cu ildə nəşr olunan “Allı qız, ballı qız, xallı qız” Eldar Baxışın uşaqlar üçün yazdığı ilk kitabıdır. Bundan əvvəl şairin böyüklər üçün “İydə çiçəyi”, “Üçtəpə bayatıları” kitabları nəşr edilib. “Allı qız, ballı qız, xallı qız” kitabında ana yurdumuzda böyüyüb boya-başa çatan körpələrin fikri, düşüncəsi, sevinci tərənnüm olunur. “Üç bacı”, “Yalçın-Yalçın”, “Ağlağan Sevda” lirik poemalarnın mövzusu da uşaqların həyatından alınıb. Bununla yanaşı vətənə, insana, əməyə olan dəyər də kitabda öz yerini almışdır. Təbiət gözəllikləri,dənizlə söhbət, insana sevgi də bu kitabda yüksək tərənnüm edilir.

**Yuxuda itən Ceyran**

Ceyran yuxuda
Meşədə itdi.
Bilmədi hansı
Tərəfə getdi.
Qalın pöhrələr
Kəsdi aranı.
Gəldiyi yollar,
Cığırlar hanı?
Nə işə düşdü axırı Ceyran:
İtirdi yolu, cığırı Ceyran.
Hara baxırsan
Ağac görünür.
Ağaclar üç-dörd
Qulac görünür.
Haradasa bir qurd
Uladı birdən.

Ceyran diksinib
Tez qalxdı yerdən...
... Açdı gözünü, tapdı özünü.

Eldar Baxışın növbəti kitabı olan "Qara ilə Qaracanın nağılı" 1986-cı ildə işıq üzü görmüşdür. Eldar Baxış uşaqlar üçün maraqlı, dadlı-duzlu, tez əzbərlənən və uzun müddət tez yadda qalan, böyük tərbiyəvi əhəmiyyətli şeirlər, nağıl-poemalar yazan şairlərdəndir. Bu kitabına şair təzə şeirlərini "Nəbinin nağılı", "Qarovun dərənin adamları", "Ördək şəhərə gedir" poemalarını daxil etmişdir. Bu kitabı oxuduqca gözəl, ağıllı Andayla Qaçaq Nəbi, Vətən müharibəsi qəhramanına heykəl qoyduran Qarovun dərənin uşaqları ilə tanış olacaq və onları sevəcəksiniz:

**Müəllimin yanında.**
Tapdığım göbələyi
Müəllimə gətirdim.
Soruşdu:- Bu hardandı?..
Mən özümü itirdim.
Bircə bunu dedim ki,
Məktəbin həyətindən,
Ağacın koğuşundan.
Utanmaz göbələksə
Müəllimin yanında
Motal papağını da
Götürmədi başından...

1988-ci ildə nəşr olunan “Deyə bilmədiyim sözlər” Eldar Baxışın növbəti kitablarındandır. Bu kitabda müasirlərimizin zəngin mənəvi dünyası, insanların bütün yer üzündə sülh və işıqlı gələcək uğrunda mübarizəsi şairin əsas mövzularıdır:

**Ümidin balası, ümidin oğlu**

Atam son anında aşırma kimi
Çiyninin üstündən aşırdı məni.
Gümanı ümidə gəlirdi bircə,
Elə ümidə də tapşırdı məni.
Mən bir arı oldum elə o gündən,
Ümid də oldu arı pətəyi.
Mənim başım oldu onun yastığı,
Mənim əlim oldu onun ətəyi.
Əlişə dedilər Həşimin oğlu,
Vəlişə dedilər Həmidin oğlu,
Mənə də dedilər hara getdimsə,
Ümidin balası, Ümidin oğlu.

1990-cı ildə nəşr olunan “Atlı oğlanlar” gözəl şair Eldar Baxışın növbəti kitablarındandır. Bu kitab onun balalarımız üçün yazdığı ilk nəsr kitabıdır. Yazıçı, doğma, bərəkətli torpağımızı, günəşli günlərimizi poetik bir qələmlə tərənnüm edir. “Qarovun dərənin adamları” silsilə povestində sadə kənd adamlarının bir-birinə qayğısından, onların doğmalarından, arzu və istəklərindən söhbət açır. “İyirmi dörd il sonra” povesti çekist Ələkbər Abdullayevin şücaət dolu həyatına həsr edilib:

Kənddə qocaq bir kişidən soruşublar:
-Sizin elin böyüyü kimdi?
Deyib:
-Katib.

Soruşublar:
-Sizin elin kiçiyi kimdi bə?
Deyib:
-Qarışqa.

Eldar Baxışın növbəti kitabı olan "Ölüsü ilə-ərəbcə, dirisi ilə-rusca" 1993-cı ildə işıq üzü görmüşdür. El-obada zaman-zaman duzlu, məzəli bəzəmələr (lətifələr) yaranır. Bu kitaba yeni dövrün-bizim günlərin bəzəmələri toplanıb:

Ən xoşbəxt heyvan hansıdı?
-Pişik,
-Niyə?
-Ona görə ki, aslana oxşayır.
Ən bədbəxt heyvan hansıdı?
-Aslan.
-Niyə?
-Ona görə ki, pişiyə oxşayır.

*Tədbirin sonunda iştirakçılar onun şeirlərindən söyləyir və lətifələrini səhnələşdirirlər.*

Şairin yaradıcılığını uşaqlara tanıtmaq məqsədilə kitabxanada keçirilən tədbirlərdən biri də ***"Günəşə uçmaq istəyən çiçəklər"*** adlı *səhərcikdir*. Səhərcik kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulduğundan kitabxananın "nağıl otağı" nda keçirilməsi məqsədə uyğundur. Bunun üçün məktəbin aşağı sinif şagirdləri kitabxanaya dəvət olunur. İlk olaraq kitabxanaçı adı çəkilən şair haqqında onlara məlumat verir:

*Kitabxanaçı:* Çəməndə gəzəndə heç fikir vermisinizmi, çiçəklər kirpiklərini qırpa-qırpa, gözləri qamaşa-qamaşa elə hey günəşə baxırlar. Günəşə baxırlar ki, elə hey onun ılıq şüalarını doyunca içsinlər. Bir də çiçəklərin ürəyindən keçir ki, günəşə uçsunlar. Hətta sizə deyim ki, meh vurduqca ləçəklərini tərpədirlər ki, bəlkə kəpənək kimi uça bildilər. Amma onlar heç zaman uça bilmir, axşamüstü sevimli anaları günəşdən küsürlər. Başlarını

aşağı dikib dərin fikrə gedirlər. Ancaq səhərə yaxın hər şeyi unudurlar. Dan yeri elə gözəl sökülür, quşlar elə ləzzətlə oxuyurlar ki, günəşdən küsdükləri tamam yadından çıxır. Bax həmin dan yerinin sökülməsi, quşların çəh-çəhlə oxuması əsl şeirdi və həqiqi şeir insanların ürəyindən incikliyi silir, adamları bir-birinə dost olmağa, böyük amallar uğrunda mübarizə aparmağa çağırır. Bu gün oxumağa başladığınız kitabın müəllifi Eldar Baxış əsasən böyüklər üçün yazan istedadlı şairlərimizdən biridir. Onun şeirlərində uşaq dünyasına çox yaxın olan gözəl bir xüsusiyyət var. Şair həmişə ən sadə görünən məsəllərdən yazır. Amma bu sadə əhvalatların arxasında onun ciddi, maraqlı fikirləri dayanır. Bu sadəlik Eldar Baxışı uşaqlar üçün əsər yazmağa gətirib çıxartdı. Onun uşaqlara həsr etdiyi şeirlərini uşaq jurnallarında oxumusunuz və ya radioda qulaq asmısınız. Şeirlər müxtəlif və özünə xasdır. Birinin dili gözəldi, o birinin qayəsi. Başqa bir şeirin ritmi, ahəngi:

Allı gəldi,
Xallı gəldi,
Ballı gəldi.
Allı dedi:
-Alıma bax
Xallı dedi:
-Xalıma bax
Ballı bilmədi nə desin.
Ballının balı yox idi.
Ballı yemişdi balını.
İndi durub fağır-fağır
Sorurdu öz barmağını.

Ballının fağır-fağır barmağını sorması bir lövhədir. Şair barmağını soran uşağın bu hərəkətini ustalıqla mənalandıra bilib. “Dağa dırmaşan cığır” şeirində isə şair başqa bir ahəngdən istifadə edir. Uşaq cığıra deyir:

Durub baxıram sənə
Sən qəribə cığırsan.
Mən çıxa bilmədiyim
Zirvələrə çıxırsan.
Qayaların, daşların
Yanından sivişirsən
Qarşını kəsən çayın
Bu tayından tullanıb
O tayına düşürsən.

Görürsünüzmü, çığır necə canlı təsvir olunub. Elə bir şair adicə cığırdan yox, dəcəl bir uşaqdan, qoçaq bir qəhrəmandan söhbət açır. Çəməndə hər çiçəyin öz gözəlliyi olduğu kimi Eldar Baxışın şeirlərinin də hərəsinin öz ləyaqəti vardır. Bu şeirlər də çəməndəki çiçəklər kimi uçmaq istəyirlər. Ancaq çəməndəki çiçəklər axşamacan zərif yarpaqlarını tərpədib günəşə qanadlanmaq istəyirdilərsə, bu şeirlər sizin görüşünüzə uçmaq istəyirlər. Onların da günəşi sizsiniz, əziz balalar. Amma bu şeirlər çiçəklərdən daha xoşbəxtdir. Çünki çiçəklər hər zaman günəşə uça bilməyəcəklər. Amma şeirləri siz hər zaman sevə-sevə oxuyacaqsınız.

*İştirakçılardan biri səhnəyə yaxınlaşaraq Eldar Baxışın “Qələm yazandı, pozan pozandı” adlı şeirini deməyə başlayır:*

Bir gün qələm deyən söz
Pozana xoş gəlmədi,
Bir gün pozan deyən söz
Qələmə xoş gəlmədi;
Axır, dalaşdı onlar.
Onların dalaşmağı

Dünyaya xoş gəlmədi,
Aləmə xoş gəlmədi...
Qələm  yazanı,
Pozan pozurdu.
Pozan pozanı,
Qələm yazırdı.
Yazı dəyişib
Pozu olurdu.
Pozu dəyişib
Yazı olurdu.
Yazılan elə
Yazılırdı ki,
Pozulan elə
Pozulurdu ki,
Bircə göz qırpımında.
Qarış qulac olurdu,
Yastan yamac olurdu,
Pöhrə ağac olurdu.
Bir ikiyə dönürdü.
İki birə dönürdü.
Tir pərdiyə dönürdü.
Pərdi tirə dönürdü.
Ay günə qarışırdı.
Gün aya qarışırdı.
Binə tərpənib, gedib
Binaya qarışırdı.
Ağ yaşıldan,
Yaşıl  da
Qaradan seçilirdi.
Darvaza qapalaqdan,
Barıdan seçilirdi.
Tut pozulurdu,

At yazılırdı.
At pozulurdu,
Ot yazılırdı.
Səs səslə öcəşirdi,
Söz sözlə öcəşirdi,
Dağ düzlə öcəşirdi.
Qaş gözlə öcəşirdi.
...Gülün sözü bülbülə
Xoş getmirdi dünyada.
Dünya çaş-baş qalmışdı,
İş getmirdi dünyada.
Göydən torpaq olarmı,
Torpaqdan göy olarmı?
Belə də iş olarmı?
Belə də şey olarmı?
Dünya işə qarışdı,
Aləm işə qarışdı.
Axır ki, bir təhərlə
Pozan-qələm barışdı,
İş də getdi o gündən.
Dayanmadı, durmadı,
Yağ kimi getdi hər iş;
Qaçışa döndü qaçış,
Yerişə döndü yeriş.
Ən pis iş bu dünyada
Dalaşmaqdı, uşaqlar.
Dünyada ən yaxşı iş
Barışmaqdı, uşaqlar.
Qələm bu xoş sözləri
Daha hara yazmadı?!
Yazdı, pozan da baxdı,
Pozan daha pozmadı...

*Kitabxanaçının çıxışından sonra iştirakçılar "Məftunun bağa getməsi"adlı səhərciyə tamaşa edirlər. Səhnədə meyvə bağı təsvir edilir. Bunun üçün xüsusi dekorasiyalardan istifadə olunur:*

*I iştirakçı:* Məftunu apardılar
Bir gün meyvə bağına.
Dörd göz olub, boylandı
Qız soluna-sağına.
-O nar mənimdi, dedi,

*II iştirakçı:* Heç kəs nara dəyməsin.
Heç kəs o şaftalının
Qanadını əyməsin.
O alma da mənimdi,
Əl vurmasın bir adam.
Mənimdi o gilənar,
O albalı, o badam...
O əncir də mənimdi,
O üzüm də mənimdi.
Kim toxunsa, döyərəm.
Nə vaxt kefim istərsə
Yarısını saxlaram,
Yarısını yeyərəm.

*I iştirakçı:* Günel dedi:
*III iştirakçı:* -A Məftun,
Bu nə işdi görürsən?
Hamısı sənin oldu,
Bəs bizə nə verirsən?

*I iştirakçı:* Məftun dedi:

*II iştirakçı:* -Sizəmi?
Gedin axtarın, gəzin...
Gördüklərim mənimdi,
Görmədiklərim-sizin...

*Səhnəcik başa çatdıqdan sonra kitabxanaçı bu mövzu haqqında uşaqlarla ətraflı söhbət edir. Uşaqlara bölüşmək, paylaşmaq hissinin ən gözəl xüsusiyyət olduğunu bildirir. İştirakçılar bu səhnəciyə öz münasibətlərini bildirirlər.*

Eldar Baxışın 70-illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də ədəbi-bədii gecədir. ***"Bir gözü ağlayan, bir gözü gülən dünya"*** adlı ədəbi-bədii gecə keçirilir. Gecədə Azərbaycanın görkəmli ədibləri; şair və yazıçılar, sənət-söz adamları, bəstəkar və müğənnilər, məktəblilər və ümumilikdə Eldar Baxışın qələminə vurğun oxucular toplaşır. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Gecənin əvvəlində tədbir iştirakçılarına şairin həyat və yaradıcılığından bəhs edən slayd təqdim olunur. Sonra isə ədəbi-bədii gecəyə start verilir.

*I aparıcı:* Salam, dəyərli qonaqlar, bizim şeirli, sözlü tədbirə xoş gəlmisiniz. Bu gün hamımız Eldar Baxışın 70 illik yubileyi münasibətilə onun keçdiyi keşməkeşli ömür yoluna nəzər salmaq və şeirlərini bir daha sevmək üçün buraya toplaşmışıq. Eldar Baxış həyatın bütün səslərinə, bütün çağırışlarına cavab verən əsl şairdir. O, ahəngini Azərbaycanın dahi şairlərinin ahəngindən götürmüş bir şairdir.

Şeir ürəyin, beynin kardioqramıdır. Şeir yalnız ürəyin yox, həm də ömrün çövhəridir. E.Baxışın kitablarında yalnız bircə ömrün deyil, nəsillər və əsrlər ömrünün cövhəri verilmişdir. Xoşbəxt o şairdir ki, xalqını təmsil edə bilir, bu

halda onun ilham vergiləri yalnız özünün deyil, bütün ulusun, yurdun mənəvi kardioqramına çevrilir. Şeir və dastanların çoxu əsrimizin son rübündə yazılsa da, ehtiva, dairəsi çox böyük, çox əzəmətlidir. Eıdar Baxış fikir şairidir, düşüncə şairidir. Bütün bunlarla yanaşı ona əqidə şairi desək yerinə düşərdi.

*II aparıcı:* Eldar Baxış əsl vətənpərvər şair idi desək, yanılmarıq. Eldar Baxış həyat qüvvəsiylə dolu bir şair idi. Onda nağıl yox, dastan yox, hardasa bir qaravəlli havası vardı. Bu dediklərimiz intonasiya adlı poetik kateqoriyanın empirik təsviridir. Yəni bununla kifayətlənmək olmaz. İntonasiya misra, yaxud bənddə sözlərin düzülüşü və diktəsidir. Şeirdə əsl hadisə elə intonasiyadır. Eldar Baxışda inversiya-sözlərin alt-alta yerdəyişməsi, bir-biri ilə üz-üzə gəlib ayrılması, simmetriya, assimetriya yaratması xüsusi hadisədir. İntonasiya hadisəsi xüsusi olaraq qafiyə ilə bağlıdır. Göz qafiyəsi var, bir də qulaq, yəni eşitmə. Eldar Baxışa ikincisi əsasdır. Eşitdiyin səs assosiasiyalar yaradır, həmin intonasiyanın ötürdüyü duyğunu tam açana qədər hərəkət edir.

*I aparıcı:* Eldar Baxış bu mənada kitablardan yox, xalqın içindən gəlirdi. Həm də eşitdiklərini kor bucaq altında əyməklə. Dilə xüsusi baxışıyla. Çünki hər şair-ayrıca bir dildir, yaxud dilin ayrıca görüntüsüdür. Bunu belə anlasaq, dilimizin xəritəsinin nə qədər geniş, ucsuz-bucaqsız olduğunu bilərik.
Burda bir örnək yerinə düşər:

Dədəm kərəntimi itiləyərdi,
Nənəm köynəyimi ütüləyərdi.
Mən də danışardım, üdüləyərdim...

-Bəli, burda "göz" məsələsi də var. Yəni yuxarıda sadalanan iki prinsip qarışıb bir-birinə. Qafiyə həm də görüntü yaradır. Eldar Baxışın qafiyələrində həmişə bir gözlənilməzlik var və ondan da vacibi bu gözlənilməz qafiyələr heç vaxt adamı incitmir. Eldar Baxış bu mənada kitablardan yox, xalqın içindən

gəlirdi. Həm də eşitdiklərini kor bucaq altında əyməklə və dilə xüsusi baxışıyla. Onun qoşma və gəraylı səpgisində yazdığı şeirlərin də tamam yeni intonasiyası vardı. Eldar Baxışda həm də epik başlanğıc vardı ki, bu da nağıllarla, əfsanələrlə, dastanlarla bağlı idi. Və bu xüsusiyyət əvvəldən axıra qədər də davam edirdi. Bu cəhət onun gəraylılarında da var idi. O, novator şair idi. Həm də bu novatorluğu ənənəvi şeirdə eləyə bildi. Bu heç də asan məsələ deyildi. Bizim ədəbiyyatda həm də Eldar Baxış obrazı var. Bəli, var və etiraf edək ki, bu hər qələm adamına nəsib olmur.

*II aparıcı:* El arasında yaxşı bir məsələ var ki, dağı dağla müqayisə eləməzlər. Şair üçün ən önəmli olan özünün özündən və başqalarından fərqidir. Əgər sən özünü və hamını təkrarlayırsansa, bu əsl faciədir. Eldar Baxış da bu fərq qabarıq şəkildə görünür. Eldar Baxış gələcəyin şairi idi. Dünənin, bu günün şairi olduğu kimi. Eldar Baxış da gəncliyin daim oxuyacağı və nələrsə öyrənəcəyi şair idi. O, milli poeziya ilə sıx şəkildə bağlı olan, eyni zamanda orijinal nəfəsi ilə ona qarşı duran bir irs qoyub getdi. Onu təqlid eləmək mümkün deyil. Şair adi şeylrədən şeir yazır, amma onun içində bir tale olur. Eldar Baxış dünyaya gələndə yüzlərlə bənzərsiz şair vardı. Bunların içərisində öz imzasını yaratmaq, öz imzasını qoymaq elə-belə iş deyil. Məncə, o bütün yaradıcılığı boyu deyə biləcəyi sözlərin böyük bir hissəsini deyə bildi. Bütün bunlarla yanaşı onu da qeyd etmək istərdim ki, Eldar Baxış əsl vətənə bağlı şair idi.

*II aparıcı:* Hikmət sahibi şairin yaradıcılığına nəzər salsaq, yazıların nə qədər qəlb ağrısı, ürək yanğısı ilə yazıldığının şahidi olarıq:

Yer var ki, bir quru çiçəyi yoxdu,
Çiçəyi olsa da ləçəyi yoxdu,
Vətənin böyüyü, kiçiyi yoxdu,
Bir əlli-bir əlli tutmayın məni...

Eldar Baxışın tərzi başqa idi və ölənə qədər də dəyişmədi. Onun hətta bir balaca ictimai ruhlu mətnlərində də şeirin daxilindəki dinamika özünə yol açıb ağlagəlməz yerləri gəzib-dolaşırdı. Bu dinamika çəmənlikdə axışan suya bənzəyirdi. Onun "Oyun havaları" silsiləsi var. Eldar Baxış duyğunun içindəki səsi canlandıra bilirdi. Bəlkə bunu eşidirdin də. Könül budağında oturan quşun səsindən su damcılayırdı bəlkə...

Gül atdın, məndə qaldı,
Gülüm hey,
Qaldı-qaldı saraldı,
Gülüm hey...
Saxlaram sarı gülü,
Gülüm hey,
Neynirəm ayrı gülü,
Gülüm hey...
Bağın var, bağban olum,
Gülüm hey,
Bu gülə qurban olum,
Gülüm hey.

*I aparıcı:* Şair təkrarsız idi sənnətdə. O, heç kimin yolu ilə getmirdi. Yalnız özü açdığı cığırda da elə özü idi. Eldar Baxış istər kənddə, istər şəhərdən özünün seçdiyi detalları-kərpicləri hörüb bir konstruksiya yaradırdı. Oxuyanda da deyirdin ki, bunu yalnız Eldar Baxış deyə bilər. Bu yalnız onun nəfəsindən gələ bilər. Gözəl mətnlərdə onun ayaq izlərini bilənlər bilir. Bax, şeirin əsl mahiyyəti burda gizlənir, həmin görünməyən izləri görən adam dünyada metafora, bənzətmə və bu tipli şeylərin bitdiyi bir yerə gəlir, real həyatdakı düyün düşmüş kələf

açılmağa başlayır. Şeirdə bu qat var, məncə... O, istənilən hadisənin taleyini, aqibətini birbaşa təbiətlə bağlayırdı, təbiət, belə olduğu üçündür ki, onun mətninin məntiqinə çevrilirdi, məsələn:

Ay dədə, boyuna qurban olum mən,
O günlər su kimi sovuldu, getdi.
Yağışdı- yağmadı, otdu-bitmədi,
Çiçəyi burnunda ovuldu getdi…

*II aparıcı:* Hara qaçırsınız, kənd uşaqları
Göbəyiniz burda kəsilməyibmi?
Burdan-bu qaraca damın altından,
Bu ağcaqovağın, şamın altından
Hara qaçırsınız, kənd uşaqları?
Bu dağları atıb, daşları atıb,
Bu yayları atıb, qışları atıb,
Körpəcə-körpəcə quşları atıb,
Hara qaçırsınız, kənd uşaqları?
Çay qalxıb,
Çay daşıb-keçən gərəkdi,
Arandan yaylağa köçən gərəkdi,
Biçənək otlanıb-biçən gərəkdi,-
Hara qaçırsınız, kənd uşaqları?

Bütün yaradıcılığı boyu Eldar Baxış bu səpgidə, bu tempdə sadə, hamının anlayacağı tərzdə yazdı. O, sübut elədi ki, Azərbaycan şeirini tapmaca, krossvord, müəmma oyununa qatışdırmaq olmaz.

*I iştirakçı:* O, tarixçi idi. Bakı kəndlərində öz ixtisası üzrə müəllimlik də eləmişdi, sonra öz ərizəsi ilə bir il əsgəri xidmətdə də olmuşdu. Sonralar Televiziya və Radio Şirkətində uzun müddət çalışdı, müstəqilliyimizin ilk illərində “Səs” və “Nəfəs”

qəzetlərini yaratdı, sonuncu iş yeri yenə radio oldu, Uşaq verilişləri Baş redaksiyasının baş redaktoru vəzifəsində çalışdı.. Ancaq tale onu ŞAİR yaratmışdı. Şair şeirlərini öz ehtiyacından, qəlb ehtiyacından yazırdı. Eldar Baxış özü barədə belə deyirdi: "Mən poeziyaya möcüzə kimi baxsam, ancaq o dini kitablardakı möcüzə kimi baxaram. Mən poeziyadan çəkdiyimi heç nədən çəkmirəm. Mən şeir yazmıram, and olsun o bir olan Allaha, səmimi deyirəm bunu, mən öz rahatlığım üçün yazıram, canımı qurtarıram şeirdən, şeir məni qoymur yaşamağa, mən də istəyirəm kəpənək kimi atılım-düşüm, ağac kimi tərpənim, su kimi axım".

*II iştirakçı:* E.Baxış belə deyirdi: "Dünyada olan bütün insanların milləti var. Mən türkəm, sən ingilissən, o birisi fransızdı, bir başqası yapondu-yaxud peyğəmbərləri götürək: tutaq ki, İsa peyğəmbər cühuddu, Məhəmməd peyğəmbər ərəbdi. Hamımızın milləti var, amma Tanrının milləti yoxdu. Bəlkə buna görə də Tanrı göy üzündədi, biz yer üzündə. Bəlkə buna görə Tanrı hamıdan-məndən, səndən, bizdən, sizdən, peyğəmbərdən, imamdan böyükdü, uludu. Bəlkə buna görə min-milyon ildi əlləşirik, vuruşuruq, dua oxuyuruq, dəstəmaz alırıq, namaz qılırıq, oruc tuturuq, ancaq gedib o böyük, ulu Tanrıya qovuşa bilmirik". Amma o, elə sağlığında Sözün Tanrısına qovuşmuşdu. Ən yaxın dostlarından olan Vaqif Bayatlı Odər onun ölümündən sonra bu sözləri yazmışdı: "Eldar Baxış Azərbaycan dilinin yox, türk dilinin şairidir. Türk dili Göy üzünün və Yer üzünün dilidir. Bu mənada Eldar Tanrının, Göyüzünün şairi olmaqla, həm bizim yaşadığımız bu yer üzünün də şairidir. Bu, Eldar Baxışın hamının gördüyü kiçik bir hissəsidir. Deyilənə görə, vəsiyyət eləyib ki, onun başdaşına bircə söz-"Azadlıq" sözü yazsınlar. Eldar Baxış Tanrının seçdiyi ən azad adamlardan idi.

Uzaqgörən, müdrik şair Eldar Baxışın oxucuları və xalqı tərəfindən heç unudulmadı ki... O, həmişə xatırlandı. Onun şeirlərindən "Sərçə balası"na və başqa üç şeirinə kliplər hazırlandı.

*II iştirakçı:* Eldar Baxış bizim üçün, Azərbaycan ədəbiyyatı üçün çox böyük şair olub. Unudulmayıb. Eldar Baxışın yoxluğu indi artıq dərəcədə hiss olunur və poeziyadan bir işıqlı səsin, öz sözünün, öz qəlbinin, öz taleyinin şairi olan bir insanın var olmaması hər şeydən əvvəl, ədəbiyyat üçün ağır itgidir.

İndiyə qədər deyə bilmədiyim sözlər var,-
Ürəyimin başında dolaşır o sözlər,
Ürəyimin qanına bulaşır o sözlər,
Ağı deyib, ağlaşır o sözlər...

**Ədəbiyyat siyahısı:**

**Kiril qrafikası ilə**

Allı qız, ballı qız, xallı qız : şeirlər və poemalar. - Bakı : Gənclik, 1983. - 84 s.

Atlı oğlanlar. - Bakı : Gənclik, 1990. - 192 s.

Deyə bilmədiyim sözlər. - Bakı : Yazıçı, 1988. - 128 s.

İydə çiçəyi : şeirlər. - Bakı : Gənclik, 1977. - 36 s.

Qara ilə Qaracanın nağılı. - Bakı : Gənclik, 1986. - 98 s.

Ölüsü ilə ərəbcə, dirisi ilə rusca / toplayanı, ön və son sözün müəllifi E.Baxış. – Bakı : Yazıçı, 1993. – 168 s.

Üçtəpə bayatıları : şeirlər. - Bakı : Gənclik, 1979. - 77 s.

***Dövri mətbuatda***

Alma : hekayə // Göy qurşağı. - 2012. - № 3(37). - S. 6,7.

Boy ; Rəsul Rzanın ölümü ; Dədəboyu və b. : şerlər // Ulduz. - 2008. - №11. - S.31-35.

Boz ay ; Mənim anam ; Anamız : şeirlər // Göyərçin. - 2013. - № 3. - S. 3.

Əkinçi deyir balıqçı deyir ; Vətən ; Harda yazan görsələr ; Nənəmuç : şeirlər // Göyərçin. - 2007. - № 10. - S.6-7.

Əli Vəliyev haqqında bildiklərim, eşitdiklərim // Yada düşdü. - 2012. - № 3. - S. 44-46.

Həsrət ; Nəsə çatmır, çatmır nəsə bu yer üzündə ; Mənim də havamı aldı bu dünya və b. şeirlər // Kaspi. - 2015. - 7 noyabr. - № 185. - S. 16.

28 May : Azərbaycan Xalq Cümhuriyyəti - 90 : şeir // Mədəniyyət. - 2008. - 28 may. - S. 15.

Nəsə çatmır, çatmır nəsə bu yer üzündə ; Mənim də havamı aldı bu dünya ; Qələm ; "Yaşayış" : şeirlər // Kaspi. - 2012. - 24-26 noyabr. - № 431. - S. 16.

Vətən // Savalan. - 2008. - 18-20 noyabr. - S. 1.

Yumorlu mikronovellalar // Yada düşdü. - 2013. - № 1. - S. 88-89.

## HAQQINDA

Əhmədli Z. Tanrının yolunda düz duran dərddir : Eldar Baxış haqqında // Ədəbiyyat qəzeti. - 2012. - 26 may. - № 19. - S. 4.

Kürdoğlu H. Azadlıq şəhidi : Eldar Baxışın xatirəsinə // Yurduma qurbandır sözüm. - Bakı : Sabah, 2005. - S. 321-322.

Musayeva İ. Taleyinin şeirini yazan adam : Eldar Baxışın poeziyası haqqında // Ədəbiyyat qəzeti. - 2017. - 29 aprel. - № 15. - S. 12-13.

Vahid T. "İstərdim ki, qəbrim mənim şeirim olsun" : Eldar Baxış - 65 // Mədəniyyət. - 2012. - № 45.

Vahidqızı T. Mənə yarımçıq azadlıq verincə, Bütöv ölüm ver, ilahi : 22 iyun poeziyamızın həmişəyaşıl Eldar şamı Eldar Baxışın doğum günüdür // Mədəniyyət. - 2011. - № 45.

Xanəmir. Günəşin küpündəki rənglərdən biri - Eldar Baxış // Ədəbiyyat qəzeti. - 2016. - 19 noyabr. - № 43. - S. 15.

**Taleyinin şeirini yazan adam-Eldar Baxış**
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 27
Çapa imzalanmışdır:15.05.2017
Tirajı:100
Pulsuz